**İRADƏ KƏRİMOVA**
**BDU**
**filologiya üzrə fəlsəfə doktoru**
**Zahid Xəlil küçəsi**

# AZƏRBAYCAN TELEKANALLARINDA “XƏBƏRLƏR” İNFORMASİYA PROQRAMLARI VƏ APARICILARININ FƏALİYYƏTİ HAQQINDA

**Xülasə**

Məqalədə Azərbaycan telekanallarının “Xəbərlər” informasiya proqramları, onların növlərivə bu proqramların aparıcılarının fəaliyyəti tədqiq olunur. Qeyd olunur ki, nformasiya proqramlarının reytinqi televiziya xəbərləri aparıcılarının peşəkarlığından asılıdır. Onlar günün informasiya axınının əsas hissəsini təmsil edir, dünyanın informasiya mənbələrini tamamlayır, zənginləşdirir və inkişaf etdirirərək, canlı efirdə əks etdirirlər . Televiziya tamaşaçılarının ictimai həyatın ən mühüm və müvafiq faktlarından, hadisələrindən xəbərdar olması üçün informasiya proqramlarının əks etdirilməsi vacib və mütləqdir.

Göstərilir ki, bu gün televiziya xəbərlərinə böyük tələbat var və müasir telekanalların informasiya proqramları oxşar xüsusiyyətləri ilə xarakterizə olunur: informasiya çeşidinin daim zənginləşdirilməsi, mövzunun məhsuldarlığı, dəqiqliyi, aktuallığı və kəskinliyii, informasiya yayımı zamanı nitqin sürət tempi, zəngin söz ehtiyatı və aparıcının peşəkarlığı. Professional aparıcı keyfiyyətlərinin ideal toplusu isə bunlardır: avtoritet (nüfuz), səriştə (bacarıq), aydın danışıq qabiliyyəti, xarizma (xarakter), peşəkarlıq, yaxşı səs, gözəl görünüş. Televiziya “Xəbərlər” informasiya proqramının aparıcıları müasir insanlara düyəvi xəbərləri çatdıran böyük bir quvvədir.

**Açar sözlər:** Azərbaycan telekanalları, “Xəbərlər” informasiya proqramlari, ədəbi dil normaları, telexəbərlər.

Azərbaycan televiziyası 60 ildən çoxdur ki, publisistikamızın şifahi ədəbi dilini zəngin informasiya çaları və leksik-qrammatik vasitələrlə tərənnüm edir. Televiziya sözün təsir qüvvəsi, estetik və şifahi təbliğat vasitələri baxımından öz üstünlüyü ilə fərqlənir.

Ədəbi dilimiz müasir televiziya məkanında səslənən Azərbaycan dilimiz olaraq ədəbi tələffüz normalarına düzgün əməl edilməsi ilə seçilməli,milli-mədəni, zəngin və saf dil kimi bütün dünyada tanınmalıdır. Bu baxımdan əlbəttə ki, Azərbaycan telekanallarının rolu olduqca böyükdür.

Dilin yayım dairəsini genişləndirən bir vasitə kiimi televiziyanın rolu sonsuzdur və bu da onun fəaliyyətinin genişlənməsi ilə bağlıdır. Televiziya tamaşaçısı şifahi nitqin nümayəndəsi olan aparıcı ilə ekran vasitəsilə ünsiyyətdə olduğundan teleaparıcının nitqində ədəbi dil normalarının mühafizə edilməsi vacib şərtlərdən biridir.

Qeyd etmək lazımdır ki, televiziya materiallarının dili əsasında nitq mədəniyyəti və ədəbi dil normalarının öyrənilməsinə xüsusi tələbat artmaqdadır, çünki müasir insan vaxtını kitabdan daha çox televiziya qarşısında keçirir.

Televiziya dilində bütün informasiyalar fonetik, leksik, qrammatik, üslubi səviyyələri əhatə edir. Teleproqramlarda işlədilən hər bir söz, ifadə düzgün səslənməlidir. Bu düzgün səslənmə ədəbi dilin orfoepik normasını – dil mədəniyyətini, doğma dilimizin saflığını qoruyaraq böyük sevgi ilə bütün televiziya tamaşaçılarına düzgün çatdırmaq deməkdir.

Respublikamızın televiziya kanalları proqramlarının materialları ümumi tələblərlə yanaşı, sözsüz ki, dil normalarına da cavab verməlidir.

Televiziya proqramlarında, aparıcıların dilində yol verilən dil qüsurlarının, dilçilik elmi ilə bağlı mübahisəli məqamların aradan qaldırılması, Azərbaycan dilinin saflığının qorunması mühüm məsələlərdən biridir. Bunu bizdən həm Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2013-cü ilin aprelində imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının" müddəaları, həm də qanunlarımız tələb edir. Dövlət Proqramında deyilir: "Eyni zamanda, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksək ixtisaslı kadrların hazırlanması dövrün tələbi olaraq qalır" (1,.səh.187).

Qəbul edilmiş dil sənədlərində mühüm tədbirlər həyata keçirilir, dil qanunvericiliyinin bütün sahələrində Azərbaycan dilinin tam tətbiqinə nəzarət edilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzaladığı Fərmanında oxuyuruq: **"**Müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir"(2,.səh.390).

İnsanların sosial təbiətinə xas olan əsas keyfiyyətlərdən biri xəbərləşmədir. İllər ötdükcə xəbərləşmə kütləvi şəkildə təqdim olunaraq kütləvi informasiya vasitələrinin əsas hədəflərindən birinə çevrildi. Hazırda televiziya misilsiz imkanları sayəsində çoxşaxəli informasiya kanalına çevrilərək tamaşaçıları hər bir sahə üzrə məlumatlandırır. Bütün kütləvi informasiya vasitələri kimi televiziyanın da ilkin və başlıca funksiyası əhaliyə sosial-ictimai məlumaları çatdırmaqdır. Bu mənada televiziya hər bir fərdin, cəmiyyətin və dövlətin informasiya ehtiyaclarını təmin edə biləcək ən gözəl və lazımlı vasitədir. Televiziyanın istənilən informasiyanı daha operativ, emosional və inandırıcı şəkildə çatdırmaq, tamaşaçıları ölkədə və dünyada baş verən hadisələrdən xəbərdar etmək, cəmiyyətdə gedən prosesləri izləmək, yenilikləri göstərmək imkanı vardır.

**Televiziya xəbərləri** aparıcının efirdən səsləndirdiyi şifahi xəbər və videolardan ibarət olan televiziya xəbəridir. Proqramda səsləndirilən xəbərlərin əsasən iki növü - səsləndirmə müddəti və mövzu seçimi nəzərdə tutulur. Efirə hazırlanan xəbərlərə isə şifahi xəbər, videoxəbər, birbaşa xəbər, müsahibə və s. xəbərlər daxildir. Mövzu seçimi ilə siyasi, iqtisadi, sosial, kriminal, xarici xəbərlər, idman, mədəniyyət xəbərləri, meteoroloji və s. məzmunlu xəbərləri qeyd etmək olar, bunlar digər xəbərlərdən çox fərqlənir. Telexəbər hazırlayan jurnalist nəzərə almalıdır ki, onun xəbərinə televiziya tamaşaçıları diqqət və maraqla qulaq asacaq və faktlara əsaslanan yeni bir xəbər eşidəcəklər. Telexəbər sadə və anlaşıqlı olmalı, danışıq dilinə yaxın yazılmalıdır. Bu baxımdan aşağıdakı qaydalar nəzərə alınmalıdır:

1. Telexəbər faktlara əsaslanmalı və təsirli olmalıdır;
2. Sözlər – mümkün qədər qısa olmalıdır;
3. Cümlə – mətnin mənasını saxlamaq şərti ilə qısa və sadə olmalıdır;
4.Zaman – indiki zaman felləri daha çox işlənməlidir;

5.Məchul növ – felin məchul növündən imkan daxilində istifadə olunmamalıdır, çünki felin məchul növündən aşırı istifadə qeyri-peşəkarlıq hesab olunur, yalnız müstəsna hallarda felin məchul növüdən istifadə etmək olar;

6. Anlaşılmaz cümlələrdən istifadə olunmamalıdır;

7. Mövzu aktual və operativ olmalıdır, yəni tamaşaçıya ən yeni, son xəbər çatdırılmalıdır.

Xəbər mərkəzi hər bir televiziya kanalının çevik və ən qaynar bölməsidir. Günün bütün önəmli hadisələri ilə bağlı xəbərlər bu mərkəzdə **toplanır, dəyərləndirilir, yayıma hazırlanır, auditoriyaya ötürülür.**

Müasir televiziya kanallarının daha çox tamaşaçı toplayan verilişlərindən sayılan, hadisələr barədə operativ reportaj hazırlayan və şifahi xəbərlərdən ibarət “Xəbərlər” informasiya proqramıdır. Xəbərlər buraxılışının efirdə xüsusi yeri var. Tamaşaçı informasiya almaq üçün bu proqramın vaxtını səbirsizliklə gözləyir. Televiziya xəbər mərkəzləri, cəmiyyətin ictimai-siyasi, iqtisadi və mədəni həyatından, idmana dair məlumatlar verir**,** cəmiyyət və insan həyatını dəyişə bilən (mənfi və ya müsbət mənada) proseslər, təbii fəlakətlər, qəzalar və s. barədə ən son yenilikləri diqqətə çatdırır. **“Xəbərlər”infomasiya proqramlarının aparıcıları digər proqramlardan fərqli olaraq, daha ciddi, daha məsuliyyətli olmalıdırlar.** Bu proqramlarının hazırlanmasında - müxbir, redaktor, prodüser, kameraman, montajçı, rejissor, işıqçı və başqalarının əməyi böyükdür. Gündəlik toplantılarda hansı müxbirin hansı çəkilişə gedəcəyi, hansı tədbirdən xəbər gətirəcəyi müəyyənləşdirilir. Hər müxbir savadı və ixtixtisasına uyğun obyektə təyin olunur. Müxbirlər tərəfindən də mövzu təklif oluna bilər. Çəkilişə göndərilən müxbir gələn kimi xəbəri yazır, materialı efirə hazırlayır və xəbərlər studiyadan canlı olaraq efirə verilir. Professional aparıcı keyfiyyətlərinin ideal toplusu isə bunlardır: avtoritet (nüfuz), səriştə (bacarıq), aydın danışıq qabiliyyəti, xarizma (xarakter), peşəkarlıq, yaxşı səs, gözəl görünüş.

İnformasiya proqramlarının reytinqi televiziya xəbərləri aparıcılarının peşəkarlığından asılıdır. Onlar günün informasiya axınının əsas hissəsini təmsil edir, dünyanın informasiya mənbələrini tamamlayır, zənginləşdirir və inkişaf etdirirərək, canlı efirdə əks etdirirlər . Televiziya tamaşaçılarının ictimai həyatın ən mühüm və müvafiq faktlarından, hadisələrindən xəbərdar olması üçün informasiya proqramlarının əks etdirilməsi vacib və mütləqdir.

Bu gün televiziya xəbərlərinə böyük tələbat var və müasir telekanalların informasiya proqramları oxşar xüsusiyyətləri ilə xarakterizə olunur: informasiya çeşidinin daim zənginləşdirilməsi, mövzunun məhsuldarlığı, dəqiqliyi, aktuallığı və kəskinliyii, informasiya yayımı zamanı nitqin sürət tempi, zəngin söz ehtiyatı və aparıcının peşəkarlığı.

Televiziya kompaniyasının informasiya redaksiyasının iş prinsipi kanalın hər bir əməkdaşının və jurnalistinin çox əziyyətli əməyinin nəticəsindən ibarətdir. Lakin informasiya redaksiyasının yaradıcı kollektivinin hər bir üzvünün məxsusi vəzifə borcu vardır. Azərbaycan telekanallarının əksəriyyətində məhz belə struktur mövcuddur. Bu iş metodu informasiya redaksiyasının işində qayda-qanun və təşkilatçılıq yaradır.

Xəbərlər informasiya proqramında hər bir aparıcının öz səlahiyyəti var və hər biri öz işini yerinə yetirməklə ciddi şəkildə məşğul olur. Bu baxımdan axşam və səhər buraxılışları aparıcılarının işinin mərhələlərini nəzərdən keçirək:

**1. “Səhər xəbərləri” buraxılışının aparıcılarının vəzifə məsuliyyəti:**

a) Səhər buraxılışı aparıcısı buraxlış redaktoru ilə birlikdə buraxilışin son variantını işləyib hazırlayır;

b) axşam mətnlərinin hazırlanmasına kömək edir, onların bəzilərini yenidən yazır;

c) elektron poçtla məşğul olur;

d) redaksiyaya daxil olan yeni və mühüm informasiya buraxılışlarının montaj planında dəyişiklik edir;

e) canlı efirdə xəbərləri və “montajaltı” qısa xəbərləri oxuyur;

**2. “Axşam xəbərləri” buraxılışının aparıcılarının vəzifə məsuliyyəti:**

a) şef-redaktorla birlikdə eretəsi gün üçün çəkilişlərin planını hazırlayır;

b) buraxılışın tamlığını və səhifələnməsini təmin edir;

c) buraxılışin sujetlərinin yerləşdirilməsi qaydasına görə montajda düzəlişlər edir;

d) şef-redaktorun bütün göstərişlərini yerinə yetirir;

e) buraxılışın mikrafon papkası və studiya mətnləri üzərində işləyir və onlari sonrakı sujetlərlə əlaqələndirir;

f)xəbərlər proqramının canlı efirdə teleşirkətin yaradıcı üslubuna uyğun, yüksək yaradıcı səviyyədə aparılmasını həyata keçirir;

g) xəbərlər buraxılışında efirə gedəcək mətnlərin məzmunu və hadisələrin vacibliyinə üstünlük verərək seçim edir;

h) buraxılış qrupu tərkibində buraxılışın cari planlaşdırılmasını həyata keçirir;

i)proqramın ssenari planını tərtib edir və ona məsuliyyət daşıyır;

j)gözlənilməz dəyişikliklər baş verərsə , operativ qərar qəbul edir;

k) zahiri görkəminə diqqət edir, xarici görünüşündə tələb olunan qaydalara əməl edir; şəxsi mətnlərini tərtib edir, onların təqdim olunma janrını və formasını təyin edir, mətnlərin mövzusu üzrə şəxsi məsuliyyət daşıyır, jurnalist məharəti göstərərək, onların aktual, operativ və obyektiv olmasını müəyyən edir.

Azərbaycan telekanallarının mənəvi-intellektual qüvvəsi kütləvi kommunikasiya sahələrinin müasir tamaşaçı-dinləyici tələbləri səviyyəsinə yüksəlməsində öz sözünü deyə bilsə də, bəzi telekanallarımız haqqında bu fikri demək qeyri-mümkündür. Televiziya “Xəbərlər” informasiya proqramları aparıcılarının əsas dil qüsurlarından biri Azərbaycan ədəbi dilində mükəmməl danışa bilməmələridir. Onların səhvi ondadır ki, efirdə olduqlarını unudaraq, kadr arxasında danışdıqları kimi danışırlar. Lakin unutmaq lazım deyil ki, televiziya və radionun cəmiyyət qarşısında rolu və təsiri olduqca güclüdür və efirdə səslənən hər bir hərf, söz, söz birləşməsi, cümlələr, intonasiya və vurğular, mimika və ifadələr, səs, görünüş və s. çox böyük əhəmiyyət kəsb edir.

Ən məşhur xəbər kanalımızın aparıcıları zökəm tutmuş kimi burunlarında danışmaqda davam edirlər, informasiya yenə də əvvəlki kimi qarışıq millətin dilini xatırladır, mavi ekranlardan tez-tez eşitdiyimiz “layihə” sözünün yanlış olaraq “lahiyə” şəklində və bir çox başqa sözlərin düzgün ifadə edilməməsi aparıcıların dil qüsurlarından biridir.

İnformasiya əsri hesab edilən yaşadığımız müasir dövrümüzdə kütləvi informasiya vasitələrinin, xüsusən televiziyanın rolu əvəzsizdir. Bu gün radio-televiziyada ədəbi dil normalarının kobud şəkildə pozulması halları hələ də özünü göstərməkdədir:

1.Korrektura səhvləri (orfoqrafik səhvlər)
2.Söz sırasının pozulması
3.Qrammatik əlaqələrin pozulması
4.Məntiqsizlik
5.Terminlərdən yerli-yersiz istifadə
6.Söz, ifadə yanlışlığı
7.Təkrarçılıq
8.Dəqiqlik normasının pozulması
9.Sözçülük
10.Dəftərxana üslubunun təsiri
11.Söz yaradıcılığına verilən tələblərin pozulması
12.Alınma sözlərdən yerli-yersiz istifadə
13. İxtisar tələblərinin pozulması və sairə.

AZƏRTAC-ın məlumatına görə, dekabrın 5-də "Televiziya və radioda ədəbi dil normalarına riayət edilməsi üzrə monitorinqlərin nəticələri"– nə həsr edilmiş konfransda "Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması" layihəsi çərçivəsində Milli Televiziya və Radio Şurası (MTRŞ) və Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının mütəxəssisləri tərəfindən teleradio yayımçılarının (özəl telekanallar nəzərdə tutulur) ədəbi dil normalarına riayət edilməsi ilə bağlı 2018-ci ilin avqust və sentyabr aylarında aparılmış monitorinqin nəticələri açıqlanıb. Məlum olub ki, ədəbi dil normaları dilin bütün səviyyələri üzrə - istər fonetik, istər leksik, istər qrammatik, istərsə də üslubu səviyyədə pozulur. özəl kanallarda "Xəbərlər" informasiya proqramının yayımı zamanı kifayət qədər orfoqrafik səhv aşkar edilib. Bunların bəziləri texniki səhvlərdir, bəzi səhvlər isə televiziyada Azərbaycan dilinin orfoqrafik qaydalarına riayət edilməməsi barədə təəssürat yaradıb. Ən çox durğu işarələrinin düzgün qoyulmaması, sözlərin düzgün yazılmaması, müxtəlif orfoepik qaydaların pozulmasına - sözlərin düzgün tələffüz olunmaması hallarına rast gəlinir.

Monitorinq nəticəsində qeydə alınan 4633 faktdan 2765-i fonetik, 511-i leksik, 684-ü üslubu səviyyədə norma pozuntusunun göstəricisidir. Televiziya verilişlərinin monitorinqi zamanı 3120 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 1695-i fonetik, 370-i leksik, 492-si qrammatik, 563-ü üslubu səviyyəyə aiddir. Radioların dilinin monitorinqi zamanı 1017 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 692-si fonetik, 102-si leksik, 144-ü qrammatik, 79-u üslubu səviyyəyə aiddir. Televiziya reklamlarının monitorinqi zamanı 108 norma pozuntusu faktı müəyyənləşdirilib ki, bunlardan 68-i fonetik, 21-i leksik, 15-i qrammatik, 4-ü üslubu səviyyədədir (Bakı, AZƏRTAC. 5 dekabr 2018).

## Ədəbiyyat


1. Azəbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dğvlət Proqramı" haqqında Fərmanı.. Azərbaycan Respublikası Prezidentinin Fərmanlari və Sərəncamlari.səh.187, Bakı,2013.
2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.səh.3905, Bakı,2019.
3. Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı monitorinqin nəticələri açıqlanıb. Bakı, AZƏRTAC, 5 dekabr,2018.


**И.Керимова**

## Информационные программы "новости" в азербайджанской телекоммуникации и деятельность ведущих новостей

## Резюме

В статье исследуется информационные программы на телевидении, отмечаются как главные составляющие рейтингов ведущих Азербайджанских телеканалов. Отмечается, что рейтинг информационных передач зависит от процесса получения аудиторией ежедневной информации и профессионализма ведущих и журналистов телевизионной службы новостей. Они изображают главную часть информационного потока настоящего, дополняет, обогащает и развивает информационную картину мира и отражает ее в контексте телевещания. Информационные программы необходимы для отображения общественной жизни, наиболее важных и актуальных фактов, событий, явлений, для удовлетворения потребностей телевизионной аудитории.

Отмечается, что каждый Азербайджанский канал использует сегодня свою идейную направленность. Но если обобщить идеальный набор качеств ведущего теленовостей используется следующая характеристика: авторитетность, компетентность, способность ясно высказываться, харизма, профессионализм, хороший голос, красивый вид.Современные информационные программы на телевидении характеризуются сходными чертами и сегодня существует большой спрос на телевизионные новости. Ведущий теленовостей для современного человека - особая сила, что объединяет ее со всем миром.

**Ключевые слова:** Азербайджанские телеканалы, информационные программы «Новости», нормы литературного языка, телевизионные новости.

**İ.Karimova**

**Information programs "news" in azerbaijan telecommunications and activities of leading news**

**Summary**

The article explores information programs on television, is noted as the main components of the ratings of the leading Azerbaijani TV channels. It is noted that the rating of informational programs depends on the process of receiving daily information by the audience and the professionalism of the leading and journalists of the television news service.

They represent the main part of the information flow of the present, complements, enriches and develops the information picture of the world and reflects it in the context of television broadcasting. Information programs are needed to display public life, the most important and relevant facts, events, phenomena, to meet the needs of a television audience.

It is noted that each Azerbaijan channel today uses its ideological focus. But if we generalize the ideal set of qualities of the leading television news, the following characteristic is used: credibility, competence, ability to speak clearly, charisma, professionalism, good voice, beautiful appearance.

Modern news programs on television are characterized by similar features and today there is a great demand for television news. The leading TV news for modern man is a special force that unites it with the whole world.

**Key words:** Azerbaijani TV channel,"News" information programs, literary language norms, teleconferences.

Redaksiyaya daxil olma tarixi: 12.05.2019
Çapa qəbul olunma tarixi: 10.06.2019
Filologiya elmləri doktoru, professor N. Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur.